# YALANÇI SEVGİ

**(Esse)**

Tədbirin aparıcısı bir az ucadan səsləndi:

-İndi də söz verilir JEK-in müdiri Adıgözəl müəllimə.

Qıvraq addımlarla orta sıradan gəlib çıxdı tribunaya. Zalı süzdü 400 nəfərlik iclas zalında boş yer yox idi, hələ arxada sağ və sol tərəflərdə əli çantalı yuxarı sinif şagirdləri ayaq üstəydi...Mikrofonu düzəltdi boyu bərabərinə və əllərilə tribunanın ağaclarından yapışaraq başladı, necə deyərlər, ağzından od püskürməyə:

-Necə ki, yoldaşlar qeyd elədilər, həqiqətən, bu gün Zəngilanın işğalından 21 il ötür. Mən o günü ürəyimə yazmışam. Erməni vandallarının gülləbaranından Arazı adlayıb İrana keçən o rayonun camaatı pənah gətirmişdi bizim bu Muğana... Və and olsun vicdanıma, elə o gündən mənim ürək ağrılarım dayanmır. Sonra əlini qoydu ürəyinin üstünə:

-Dərman atmasam, toxdamaram ki...

Azacıq pauza verdi və odlualovlu nitqini davam elətdirdi:

-Ay qardaşlar, ay bacılar, tək Zəngilan yox ey, külli Qarabağ, onun ətraf rayonları canımız, gözümüz, namus, qeyrət simvolumuzdur. O yerlərin hər qarışı, dağı-düzü, gülü-çiçəyi üçün can verməyə hər an hazır olmayanın bu torpaqda yaşamağa haqqı yoxdu. Xüsusən biz kişilər, oğullar... Xalq şairi Məmməd Araz nə deyib? "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı!" Başqa bir şeirində o yazır: "Vətən mənə oğul desə, nə dərdim, mamır olub qayasında bitərdim."

Zalı seyr etdi. Milçək uçsa, vızıltısı eşidilər.

Sonra mövzunu bir az genişləndirdi: əl atdı tarixi məxəzlərə, İrəvan xanlığını, Zəngəzuru, Vedibasarı... yada saldı və gəldi son illərin olaylarına. İşğal altında olan rayonların siyahısını əzbər söylədi. Birdən əlini havaya qaldırıb var səsi ilə hayqırdı:

-Baxın, baxın, beləcə yumruq kimi birləşməliyik. Vəhdətimiz, birliyimiz olsa, erməni dığaları lap tezliklə diz çökər qabağımızda... Kamikadze olmalıyıq, başa düşürsüz...Kamikadze!

Gecələr yuxuma gəlir musiqi beşiyimiz Şuşa, Cıdır düzü, Kəlbəcər, İstisu...Ulu dağlar, çeşməli sulu dağlar...

Xocalıda qətlə yetirilən günahsız insanların ruhu incidir məni... Beləcə, əsdi-coşdu və hansı şairinsə bir bənd şeirini dilə gətirdi:

**Şəhid məzarlarına**
**İsa bulağından bir ovuc su at.**
**Dirilib ayağa qalxmasalar da,**
**Rahat uyuyacaqlar**
**Qan qardaşlarım, rahat!**

Birdən sanki göy gurladı, şimşək çaxdı. Səsi xırp kəsildi. Əlini ürəyinin üstünə qoydu, güc-bəlayla başını söykədi tribunaya...

Hay-haray! Tez zəng edin "təcili yardım". Kişinin ürəyi sıxıldı.

Gözləmədi "təcili yardımı"-Əlini havaya qaldırdı, büzüşə-büzüşə, düşdü zala, titrəyə-titrəyə gəldi əvvəlki yerinə. Dəsmalını basmışdı gözlərinə. Ağlayırdı deyəsən...

***

Axşam evə gələndə inanmadı gözlərinə. Bu nədi, həyət-baca zülmət qaranlıq. Zəncirdən açılan Toplan ora-bura qaçır, hürür. Toyuq-cücə evinin- hinin də ağzı açıqdı... Talvar işığı yandırılmamışdı. Noolub? Nə baş verib? Bəs hanı Gülsüm? Qonşulardadı? Ola bilməz, axşam o, heç yana getmir.

Yaxın gəldi, qapının ağzında oturmuşdu zövcəsi, lal-dinməz, əli qoynunda. Aşağı əyildi, baxdı, çöhrəsində yaş gilələnmişdi. Əlində bir vərəq kağız var idi... Soruşdu:

-Noolub Gülü, kim dəyib xətrinə? Sənə ağır söz deyənin, bilirsən də, ağzını cıraram.

Ayağa qalxdı Gülüsüm. Həyətin işığını yandırdı. Hönkürtü vurdu. Əlindəki kağızı astaca verdi ərinə:

-Azərə "pavstka" gətirdilər... Sabah saat 9:00-da olmalıdı voyenkomatda...

Aldı baxdı, oxudu "Göndəriş vərəqi"ni. Bir də baxdı, komissar Nəsibovun qolu, möhürü olan "Göndəriş". Vücudu titrədi, dünya gözündə qaraldı:

-Nəəə? Azər əsgər getsin? Özü də ön cəbhəyə?

-Hardadı Azər?

-Nə bilim, küçələrdə, orda-burda veyillənir taytuşlarıyla...Ürəyimi kabab elədi yazıq uşaq. Rəngi qaçmışdı. Mənə nə desə yaxşıdı:

-Hə, toxta mama, toxta. Elə deyirsən hara getdin, hardan gəldin? Niyə qoşulubsan avaralara?... Sabah gedəcəm əsgəri... Meyidim gələcək üstüvə.

Boşluğa düşmüşdü sanki. Ona elə gəlirdi ki, dəyirman daşını boynuna bağlayıb, buraxıblar dibi görünməyən dərin quyuya. Gülsümün süfrəyə gətirdiyi yeməkdən bir qaşıq götürdü, udqundu, udqundu, bir tikə də keçmədi boğazından.

O axşam zəncirdən açılan Toplan yatdı, Adıgözəl yatmadı. Gözünü yumub, mürgü vursa belə, ürəyi nanə yarpağı təki əsdi, əsdi. Aman Allah, nə bəd xəbər. Azər, ailənin böyük oğlu, onu öz yerimdə varis bildiyim bala indi döyüşən orduya getsin, özü də ön cəbhəyə, təmas xəttinə?... Birdən şər deməsən, xeyir gəlməz... Yox, yox, haray bəri başdan. Məsəl var:ehtiyatlı igidin anası ağlamaz... Ayağa qalxıb otaqda var-gəl elədi, sonra əyləşdi kresloda. Başını aldı əlləri arasına... Bəs indi neyləməli, düşündü, düşündü və əl atdı mobilinə, yaxın dostlarından komissar Qurban Nəsibovun telefon nömrəsini öyrəndi və...

İndi buyurun gündüz hamını vəhdətə, birliyə, Qarabağa səsləyən "qeyrətli oğulun" telefon danışığına qulaq asın:

-Axşamınız xeyir, Qurban müəllim, bağışlayın Sizi narahat edən Adıgözəl müəllimdi, JEK-in rəisi. Başuva dönüm hardasız indi: idarədə, yoxsa evdə?

-Ay qardaş, ay yoldaş ,bu vaxt nə idarə, evdəyəm. Eşitməmisən, deyir gündüz işlə, gecə yorğunluğun canından çıxsın deyə istirahət elə, yat, dincəl...

-Canım sənə, balalaruva fəda olsun, qağa, bir söz desəm, inanmazsız bəlkə?

-Buyur, buyur, kişi, niyə inanmıram. Birdən ikiyə, haçansa mənə yalan-palan nə deyibsiz ki...

-Gündüz işim çox olmuşdu. 4 nömrəli binanın banı köhnəlib, şiferlər sınıq-salxaq... Smeta tutduq, maliyyə pul buraxsa, başlıyacağıq təmirə... Qurban müəllim, and olsun bizi xəlq edən Xaliqə, elə indicə gözümə yuxu getmişdi ki, nə görsəm yaxşıdı: ölmüşəm, cənazəmi siz götürürsünüz yerdən...

-Ha,ha,ha! Nə danışırsız, ay qardaş... Nə ölüm, nə cənazə. Mən kim, siz kim, bəyəm qohum-qardaş, dost-tanış sarıdan belə kasıbsız?

-Yox, yox, ay müəllim, bilmirəm necə olub ki, Sizin kimi kişinin devgisi, məhəbbəti dolub qəlbimə. Bu necə sevgidi, valah heç özüm də baş açmıram özümdən...

-Deyəsən, zarafatcıl adamsız haa. Boşluyun bu söz-söhbətləri... sabah gələrsiz komissarlığa... Görüşərik.

-Sağ olun, sağ olun, baş ağrısı verdim Sizə... Saat neçədə gələcəksiz işə?

-9:00-da...hələlik!

Hə, hə gizləməyimin yeri yoxdu. Gecəni nə özü cimir elədi, nə də cövzəsi. Əlləri qoyunlarında, bir-birinə qısılıb baxdılar televizora... Türk dünyasının qüruru, iftixarı, 2010-cu ilin adamı, Ermənistana 3 gün matəm yaşadan Milli Qəhrəman Mübariz İbrahimov haqqında sənədli film... Sonra düşmənlə üzbəüz təmas xəttində Azərbaycan əsgərlərinin səngər həyatı, erməni tərəfə tuşlanan pulemyotları, ağır texnikanı əks etdirən kadrlara baxa-baxa səhəri diri gözlü açdılar.

Gülsüm dedi:

-Qurban olum, ay Adı, mən gedirəm zavod tərəflərdəki Hacı Murtuzəli mollanın üstünə. "Quran"a baxdırım, istixarə elətdirim. Sən də tələs voyenkomata... Xəsislik eləmə aha, nə qədər istəsə ver. Tək əlli tutma uşağı.

-Şər deməsən, xeyir gəlməz. Birdən Qurban Nəsibov- yaxşı tanımıram onu-sərt üz göstərdi, hökm elədi ki, bəs get gətir Azəri, yoxsa fərari kimi onu verərəm polisə, onda necə?

-Özünnən bir şey düzəlt, yalvar-yaxar ki, uşağı saxlasın gələn dəfəyə...Sonrasına Allah kərimdi...

Səhər açılar-açılmaz Adıgözəl gəldi hərbi komissarlığa və həqiqətən Nəsibov sərtləndi, iki ayağını bir yerə döydü, qışqırdı:

-A kişi elə salmısan bizi? Tez elə, qoy çağırış yaşı çatmış Azər Məmmədov gəlib minsin maşına, getsin əsgərliyə. Düşmən qabağında gecə-gündüz ayıq-sayıq dayanan igid oğullarımızın hansından artıqdı sənin övladın, hə? Dünən onuncuda oxuyan iki yeniyetmə gəlmişdi, "biz döyüşən orduya getmək istəyirik" deyirdilər... Yaşları çatmadığını başa saldıq. Amma Siz, özü də idarə müdiri gör nə fikirləşirsiz... Ayıb olsun!...

Və birdən ayaqlarını qucaqladı Nəsibovun:

-Dayısı rəhmətə gedib Bakıda, ordadı Azər...

Hıçqırdı, ağladı: "qoyun heç olmazsa, yeddisi çıxsın rəhmətliyin"...

İnandı komissar və gələn dəfəyə saxlandı Azər Məmmədov...

Elə bu da bəs elədi Adıgözəl yoldaşa, cumdu özəl banklara, pulu olan dost-tanışa. Getdi Bakıya, qaynı Əmirxanla əl-ələ verib yol tapdı pul üçün sinov gedən bəzi vəzifə sahiblərinə. Oğlu Azəri saldırdı FHN-nin qoşun bölməsinə...

* * * * *
*** ****

Onu tanıyırsınızmı? Bir nəfər kimi başımızı yelləyərək "əstəxfurullah" deyəcəksiniz. Şər-böhtan libası geyib heç birinizi qınağa çəkə bilmərəm. Amma, nəyə desəniz and içim ki, arxaya, ötənlərə boylanın, baxın, belə "vətənpərvərləri", daha doğrusu, başqa adıgözəlləri çox yerdə siz də görübsüz...

Onda gəlin "vaxtım yoxdur" bəhanəsiylə uzaqlaşmayın məndən. Qoy öz qəhrəmanımı, əqidəsinə, xislətinə yaxşı bələd olduğum insanı təqdim eləyim sizlərə.

Bir elə savadlı, səviyyəli deyil, ali məktəb qapısı açmamışdır. Bakıda alış-verişlə məşqul olan qaynı Əmirxanın əl yetirməsilə inşaat texnikumunu qiyabi yolla, güc-bəlayla bitirmişdir. Amma "müəllim" sözündən hədsiz xoşallanır, ona belə müraciət edəni az qalır qucaqlayıb, bağrına bassın.

A.Məmmədov zəmanəylə tən gələn bir tipdir-desəm, inanın mənə pafosla danışmaqda, karyerası, vəzifəsi olanların qabağında hansı havaya desən qol qaldırıb oynamaqda pərgardı... Ötən əsrin 80-90-cı illəri, rayon mitinqləri...Budur, Adıgözəl tribunadan qışqırır:

-Rədd olsun Bakı! Hakimiyyət bizim-xalqın əlində olmalıdı! Yaşasın Əlikram Hümmətov! Biz Talış-Muğan Respublikası yaradırıq! Biz rus pulunu istəyirik, bakının pulunu istəmirik! Mən təklif edirəm ki, Biləsuvarın bütün məktəblərində, uşaq baxçalarında talış dili öyrənilsin...

Bir zamanlar o, kəndbəkənd gəzib şəhid ailələrinə, Qarabağ əlillərinə Surət Hüseynovun Gəncədən göndərdiyi qənd, çay, düyü torbalarını çatdırmaqla məşqul oldu...

Sonralar əsl buqələmun kimi tez-tez rəngini dəyişdi, oldu AXC üzvü... Milli istiqlalçı... Müsavatçı...Və indi YAP funksionerlərindən birisidir, Ulu Öndərimiz Heydər Əliyevin monumental heykəlini boyu çatdıqca öpür, öpür...

**Əlibala Rəhimov,**
**publisist, filoloq, "Qızıl qələm" mükafatı laureatı,**
**Biləsuvar rayonu**

### *Azərbaycanla danışıq tarifləri iki dəfə artırıldı*

**Rusiyanın "VimpelCom" mobil operatoru Mərkəzi və Şimal-Qərb federal dairəsinin ərazisində bəzi "qonaq tarifləri"nin qiymətini artırıb.**

**Bu barədə şirkətin cümə axşamı dərc olunan məlumatında deyilir.**

**MDB ölkələrinə "MDB ölkələri - 2013" tarifləri üçün zənglər bir neçə istiqamətlər üçün iki dəfə artırılıb. Belə ki, Azərbaycana zənglərin 1 dəqiqəsinin qiyməti 9 rubldan (0,22 AZN) 18 rubla (0,44) qədər artırılıb. Həmçinin abunəçilər Qazaxıstan, Gürcüstan və Qırğızıstan ilə 1 dəqiqəlik danışıq üçün 5 rubl deyil (0.12 AZN), 12 rubl (0.29) ödəməli olacaqlar. Eyni zamanda Belarusla da danışıq dəqiqəsinin tarifi 15 rubldan (0.37 AZN) 25 rubla (0.61) qədər bahalaşdırılıb.**

### *Putinin dondurma vədi*



**Rusiya Prezidenti Vladimir Putin çinli sahibkarların ölkələrinə Rusiyadan dondurma idxal edə bilmədiklərinə təəccüblənib.**

**Adalet.az-ın "İnterfaks" agentliyinə istinadən verdiyi məlumata görə, V. Putinin sahibkarlarla görüşündə çinli biznesmenlər Rusiyadan dondurma idxal edə bilmədiklərinə görə şikayət ediblər.**

**V. Putin isə buna təəccüblənərək bildirib: "Sanki dondurma milli və ya bizim mədəni dəyərimizdir. Bu barədə ilk dəfə eşidirəm.**

**Çinə gələndə Si Szinpinə özümlə xüsusi hədiyyə kimi dondurma gətirəcəm".**